# ...ayrılığı kim saldı?

**Bir yaz səhərində Arazın o tayından bu tayına yenə salam gətirmişdilər. Heydərbaba zirvəsindən üzü aşağı süzülüb gələn misralar ürəkləri sızladırdı yenə də:**

*Bir uçeydim bu çırpınan yelinən,*
*Bağlaşeydim dağdan aşan selinən,*
*Ağlaşeydim uzaq düşən elinən,*
*Bir görəydim ayrılığı kim saldı?*
*Ölkəmizdə kim qırıldı, kim qaldı?..*



Ana dilində və farsca yazdığı əsərləri ilə hələ sağlığında klassiklər səviyyəsinə yüksələn, Yaxın Şərq ədəbiyyatını bədii möcüzələrlə, təravətli obraz və ifadə vasitələrilə zənginləşdirən, dünya poeziyasına "Heydərbabaya salam" kimi möhtəşəm sənət əsərini töhfə edən Məhəmmədhüseyn Şəhriyarın bu ölməz misraları tarixi bir görüşün kulminasiya nöqtəsi oldu, ortaq dəyərlərə malik iki xalqın dostluğunun simvoluna çevrildi...

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfəri çərçivəsində keçirilən biznes forumdakı çıxışının sonunda xalqlarımız arasında münasibətlərin yeni olmadığını, tarixin qədim dövrlərindən etibarən birlikdə, yan-yana olduğumuzu deməsi: "Sərhəd qonşuluq deməkdir, evlərin qonşuluğu kimi. Qonşuların həyəti var, evi var. Lakin onların bir-birinin arasında gediş-gəliş olur. Bir-birinə dayaq durarlar, kömək edərlər, səsinə səs verərlər", - söyləməsi bu münasibətləri qoruyub-saxlamağın, bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulaması xoşbəxt gələcəyə böyük ümidlər yaradır. Çıxışlarının birində dediyi: "Keçmə namərd körpüsündən, qoy aparsın sel səni", - fikrinin davamı kimi dünyaya daha qətiyyətli bir mesaj da çatdırdı: "Biz istehsal, elm, mədəniyyət, iqtisadiyyat, siyasət sahələrində birgə hərəkət etməli, digərlərinə bunları pozmağa imkan verməməliyik. Onlar aramızda ixtilaf yaratmaq istəsələr, buna yol verməyəcəyik...".

Mətbuata bəyanatla çıxışında Azərbaycan Prezidenti İlham Əliyev iki xalq arasında əsrlər boyu mövcud olan mehribanlıq, qardaşlıq bağlarından danışdı, bu gün dövlətlərarası münasibətlərin bu möhkəm təməl üzərində inkişaf etdiyini, İran Prezidentinin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürü olduğunu dedi, dost ölkənin dövlət başçısının böyük heyətlə Azərbaycana gəlməsinin, bir çox sənədlərin imzalanmasının hər iki xalqın, dövlətin xoş niyyətini ifadə etdiyini bildirdi: "Bu gün iki müstəqil dövlət kimi biz bölgəmizdə önəmli rol oynayırıq. Bölgə məsələlərinin bölgə ölkələri tərəfindən həll olunması da hər iki tərəfin fikridir və siyasətidir". Bəli, fikirlər də, siyasət də eyni ola bilər. Onu reallaşdırmaq üçün isə siyasi iradə lazımdır. Bu gün yeni müstəviyə yüksələn Azərbaycan-İran münasibətlərinin belə bir məcraya istiqamət alması dostlarımızı sevindirir, düşmənlərimizi məyus edir. İran Prezidentinin Azərbaycana rəsmi səfərini ermənilər həzm edə bilmədilər. Keçmiş xarici işlər naziri Oskan Vardanyan Ermənistan hakimiyyətini öz xarici siyasətini düzgün qura bilməməkdə günahlandırdı. Bir sıra siyasətçilər onsuz da dalanda qalan ölkələrinin bundan sonra öz qonşuları ilə münasibətlərini normallaşdırmağa məcbur qalacağını bildirdilər. Ermənilər bu səfərin təkcə strateji, siyasi mahiyyəti baxımından narahat olmadılar. İran Prezidentinin "Heydərbabaya salam" poemasının ölməz misralarını doğma ana dilində səsləndirməsi onların yuxularını ərşə çəkdi. Bu həm də Şəhriyarın: "Türkün dili tək sevgili, istəkli dil olmaz", - fikrinin təsdiqi idi.

Şahlıq rejiminin İranda tüğyan etdiyi bir vaxtda yazdığı "Qafqazlı qardaşlar ilə görüş", "Gözüm aydın" və "Aman ayrılıq" şeirlərində Şəhriyar uzun illər boyu Şimali Azərbaycan və Bakı həsrətilə qovrulduğunu dilə gətirir, sonralar qocalıq səbəbindən bu arzusunun gerçəkləşmədiyindən söz açır. Çünki son dəfə Bakı səfəri haqqında konkret vəd verilsə də, o səfər də baş tutmamış, şairin arzusu ürəyində qalmışdı. Bu münasibətlə şimallı qardaşları qarşısında oxumaq üçün əvvəlcədən yazdığı "Qafqazlı qardaşlar ilə görüş" şeirində deyilir:

*Gəlmişik doğma yurdumuz Bakıya,*
*Qoy bu, tarixdə iftixar olsun.*
*Şəhriyardan da bu üfüqlərdə*
*Bir sınıq nəğmə yadigar qalsın.*

Şəhriyar doğma yurduna gələ bilmədi, ancaq onun yazıb-yaratdıqlarının qarşısını heç bir sədlə almaq mümkün olmadı, onlar tikanlı məftilləri aşıb bu taya çatdı. Titrək səsilə səsləndirdiyi "Heydərbabaya salam"ı ən mötəbər tədbirlərdə səsləndi, ruhu şad oldu ustadın...

Əsrin sonlarında İranla müstəqil Azərbaycan dövləti arasında münasibətlərin normallaşmasından danışarkən akademik Bəkir Nəbiyev yazırdı: "Mənim qənaətimə görə, indi sərhədlərimizdə gediş-gəlişin sahmana düşüb vüsətlənməsində "Heydərbabaya salam" və "Aman ayrılıq" müəllifi Şəhriyarın tarixi xidmətləri heç bir diplomatın, əlbəttə, heç bir silahlı qüvvənin xidmətləri ilə ölçüyəgəlməz dərəcədə böyükdür".

Ustad Şəhriyar öz əsərlərində ictimai motivlərə geniş yer verir, İranda şahlıq rejiminin rəzalətlərini göstərir, ölkənin taleyinin o zaman əslində yad əllərdə qaldığını ifşa edirdi. Ölkədə zülm və ədalətsizliyin baş alıb getməsi, cəmiyyətin həyatındakı ətalət, fanatizm, məktəblərin düşdüyü dözülməz vəziyyət və s. kimi digər ictimai bəlalardan söz açırdı. Şair təkcə öz elininobasının, vəteninin və xalqının yox, bütün dünyanın, insanlığın taleyi üçün mənəvi məsuliyyət daşıyan qüdrətli sənətkar kimi çıxış edir, XX əsrin ən böyük kəşfindən - atom enerjisindən insanların rifahı üçün deyil, iradəsini başqalarına qəbul etdirmək vasitəsi kimi istifadə edən təcavüzkar imperialist dairələrini tutarlı vasitələrlə ifşa edir, xalqları ayıq-sayıq olmağa, öz taleyini odla oynayanlara tapşırmamağa çağırırdı. Ölkəmizin ali qonağının çıxışında da bu ruh duyulurdu: "Elə bir bölgə yarada, ölkələr arasında elə bir əlaqə qura bilərik ki, Avropa ölkələri arasında olan əlaqələrdən daha üstün olsun", - deməklə müsəlman ölkələrini, regional dövlət və qonşuları qədim dövrlərdən bəri bir yerdə olmuş qardaş və bacıları əl-ələ verib bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşmağa, dünyaya baxışlarımızı qarşılıqlı qaydada razılaşdırmağa nail olmaq üçün birgə hərəkət etməyə səslədi. Azərbaycana isə dünyanın gözü qarşısında öz sevgisini bəyan etdi. Burada olmaqdan böyük məmnunluq duyduğunu ifadə edərək bu gün nizamı dağılan, çalxalanan qoca dünyaya belə söylədi: "Elə bil ki, sanki Təbrizdəyəm, Ərdəbildəyəm. Sanki doğulduğumuz, böyüdüyümüz, yaşadığımız İran Azərbaycanındayıq. Çox şadam ki, Sizinlə bir yerdəyəm. İqtisadi, mədəni, elmi, təhlükəsizlik, hərbi və digər sahələrdə əl-ələ verib özümüz, övladlarımız və sonrakı nəsillər üçün möhkəm gələcək quraq. Gələcək nəsillər fəxr etsinlər ki, bu cür sağlam əlaqələr qurmuşuq".

İnanırıq ki, bu, sadəcə sözlər olmayacaq, çünki söz qılıncdan kəsərli bir silahdır. Bunu da şah babamız Xətai deyib. Dövlət başçımız, Ali Baş Komandanın təbirincə desək, "söz imza qədər dəyərli olanda" hər şey yolunda gedir, etimad, etibar sarsılmır.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**